# MİNGƏÇEVİR ŞƏHƏR TARİX MUZEYİ

**Günay Rzayeva**
**E-mail:** gunay.rza@inbox.ru

**Muzeylərin mənası, əhəmiyyəti Azərbaycan xalqının tarixini təbliğ və əks etdirməkdən, mədəniyyətimizin səviyyəsini göstərməkdən ibarətdir. Biz öz səviyyəsinə və zamanın tələblərinə həmişə cavab verən istər keçmiş, istərsə də bugünkü mədəniyyətimizlə fəxr edirik.**

**Heydər Əliyev**
**Ümummilli lider**

Çoxəsrlik tarixə malik olan Azərbaycan dünyanın ən qədim insan məskənlərindən biridir. Vətənimizin hər bir guşəsi maddi və mənəvi mədəniyyət nümunələri ilə zəngindir. Bu nümunələrin öyrənilməsində, qorunub saxlanılmasında və nümayiş etdirilməsində muzeylər mühüm mədəni-maarif müəssisəsidir. Xalqımızın ən qədim zamanlardan müasir dövrədək tarixini və mədəniyyətinin inkişaf yolunu əks etdirən Azərbaycan muzeyləri ölkəmizdə zəngin mədəni irsin qorunması və təbliğ olunması işində mühüm rol oynayır.

Həmin muzeylərdən biri də Mingəçevir Şəhər Tarix Muzeyidir. Muzey 1968-ci il yanvarın 11-də cəmi 50 eksponatla fəaliyyətə başlayıb. Bu məkanda tarixlə mədəniyyət min illərdir ki, birgə addımlayır. Regionun zənginliyi şəhərdə fəaliyyət göstərən muzeydə də öz əksini tapıb. Mingəçevir şəhərinin qədim tarixi keçmişə, zəngin mədəniyyətə, milli dəyərlərə, faydalı qazıntılara, müxtəlif iqlim qurşaqlarına malik olması, həmçinin burada yaşayan əhalinin keçmişdən bu günümüzə daşınan tolerant həyat tərzi regionda muzeyin geniş fəaliyyət göstərməsinə imkan verir. Tapılan zəngin maddi-mədəniyyət nümunələri burada şəhər muzeyinin yaranmasına yol açmışdır.



Muzey üçün xüsusi tikili olmadığından Mərziyyə Davudova adına Mingəçevir Dövlət Dram Teatrının binasındakı kiçik otaqda fəaliyyətə başlamışdır. Daha sonra 1985-ci ildən 2015-ci ilədək doqquzmərtəbəli yaşayış binasının birinci mərtəbəsində fəaliyyətini davam etdirib.

2009-2013-cü illərdə regionların sosial-iqtisadi inkişafı ilə bağlı Dövlət Proqramının icrasına əsasən, 2013-cü ildə Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Mingəçevir şəhər Tarixi Muzeyi yeni binaya köçürülüb. Burada təmir, bərpa, rekonstruksiya işləri aparılıb və yeni ekspozisiyanın bədii tərtibat işləri həyata keçirilib. 2015-ci il sentyabrın 21-də dövlətimizin başçısının iştirakı ilə Tarix Muzeyinin açılışı reallaşıb. Cənab Prezident yenidənqurma işlərindən sonra muzeydə yaradılan şəraitlə tanış olub.

Qədim Mingəçevirin tarix və mədəniyyətini özündə əks etdirən bu muzeyin yeni bina ilə təmin olunması Prezident İlham Əliyevin Azərbaycanda milli mədəni irsin qorunması və təbliği istiqamətində verdiyi tapşırıqlara uyğun görülən işlərin tərkib hissəsidir. Aparılan yenidənqurma işlərindən sonra indi binanın ümumi sahəsi 810 kvadratmetr təşkil edir. Muzeyin üç fond otağı, 50 nəfərlik müşavirə və 2 ekspozisiya zalları var. Muzeydə 16 minə yaxın eksponat qorunur



edirlərmiş. Bunlar isə misgərlik və zərgərlik kimi sənət növlərinin qədimliyindən xəbər verir. Metaldan düzəldilmiş sənət nümunələri içərisində elələri vardır ki, üzərindəki bəzək və təsvirlərlə o dövrdəki insanların adət-ənənələri, dini görüşləri və hətta geyimləri ilə yaxından tanış ola bilirik.

Bu qazıntılar nəticəsində əldə olunan bəzi əşyalar əsasında formalaşdırılan muzey sonrakı illərdə daha da genişlənmiş, Mingəçevir ərazisinin qədim flora və faunasını əks etdirən ekspozisiya, 1946-1953-cü illərdə aparılan arxeoloji qazıntı işləri zamanı çəkilən, eləcə də Mingəçevir İstilik Elektrik Stansiyasının tikilməsi ilə bağlı fotoşəkillərdən ibarət stend yaradılmış, Mingəçevir Su Elektrik Stansiyasının maketi, XIX-XX əsrə aid təsərrüfat və məişət qabları nümayiş etdirilmək üçün ekspozisiyaya əlavə olunmuşdur.

və onlardan 400-ü ekspozisiya zallarında nümayiş etdirilir. Hazırda muzey qədim və yeni dövr şöbəsindən ibarətdir. Eksponatlar əsasən gil, torpaq, daş, dəri, sümük, yun, metal və s. kimi xammal materiallarından hazırlanmışdır. Son dərəcə qiymətli eksponatlar ölkəmizin dünyanın qədim insan məskənlərindən olduğunu bir daha təsdiqləyir. Qədim dövr şöbəsində əsasən 1946-1953-cü illərdə görkəmli tarixçi alim S.M.Qazıyevin rəhbərliyi altında tapılan arxeoloji nümunələr sərgilənir. Arxeoloqun rəhbərliyi ilə Mingəçevirdəki qazıntı işləri zamanı Cənubi Qafqazın ən iri arxeoloji kompleksi hesab edilən ərazidə 2 yaşayış yeri və 4 böyük qəbiristanlıq aşkarlanıb. Həmçinin eneolit dövründən başlayaraq (b.e.ə. III minillikdən XVII əsrədək) ayrı-ayrı tarixi dövrləri özündə ardıcıl əks etdirən 20 mindən artıq maddi-mədəniyyət nümunələri tapılmışdır. Bunların arasında torpaq, kurqan, katakomba, küp qəbirləri, istehsal vasitələri, məişət və bəzək əşyaları, pul sikkələri, tuncdan düzəldilmiş müxtəlif silah növləri, ticarət mübadiləsi yolu ilə uzaq ölkələrdən gətirilmiş məmulatlar və s. var. Kültəpədən və Mingəçevirdən (eradan əvvəl II minillik) tapılmış gildən kiçik heykəllər və Mingəçevirdə üzə çıxarılmış e.ə. V əsrə aid möhür-barmaqçıllar o dövrün geyimləri haqqında müəyyən təsəvvür yaratmağa imkan verir. Eramızın V-VI əsrlərinə aid olan Mingəçevir katakomba qəbirlərindən isə müxtəlif ipək parçalardan tikilmiş geyimlərin qalıqları tapılmışdır. E.ə. III-IV əsrlərə aid qızıldan hazırlanmış çoxlu miqdarda bəzək şeyləri və gildən ayaqqabı formasında düzəldilmiş qabların aşkarlanması azərbaycanlıların hələ çox qədim zamanlardan yüksək maddi mədəniyyətə malik olduqlarını sübut edən əsaslı dəlillərdəndir. Mingəçevir ərazisində aparılan qazıntılar zamanı üzə çıxarılmış maddi-mədəniyyət nümunələri göstərir ki, əcdadlarımız hələ e.ə II minillikdə tuncdan zərif formalı qablar, xəncərlər, baltalar, kəmərlər və zinət şeyləri düzəldib öz həyat və məişətlərində istifadə

Muzeyin yeni dövr şöbəsində isə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Prezident İlham Əliyevin həyat və fəaliyyətindən, ölkəmizin inkişafı istiqamətindəki xidmətlərindən bəhs edən fotoguşə yaradılıb.

Ölkəmizdə və regionlarımızda muzeylər şəbəkəsinin yaradılmasında və inkişafında nəzərəçarpan irəliləyişlərin əldə olunmasında, ulu öndər Heydər Əliyevin böyük rolu vardır. Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə onun bir şəxsiyyət kimi səciyyələndirən əsas cəhətlərdən biri də mədəniyyətin bir çox sahələri kimi, muzey işinin inkişafına da böyük qayğı göstərməsi idi. O, xalqımızın əsrlər boyu yaratdığı mənəvi sərvətin - mədəniyyət dəyərlərinin toplanılması, qorunması və daha da zənginləşdirilməsi üçün əməyini əsirgəməmiş, həmişə muzeylərə böyük önəm vermiş, bu sahəyə yüksək diqqət və qayğı ilə yanaşmışdır. Xalqımızın böyük oğlu istər paytaxtımızda, istərsə də regionlarda muzeylərin yaradılması, onların maddi-texniki bazasının möhkəmləndirilməsi



məqsədi ilə mühüm tədbirlər həyata keçirib. Qısa müddətdə Azərbaycanın 60-dək rayonunda tarix-diyarşünaslıq muzeyi yaradılıb. Ulu öndərimizin təşəbbüsü ilə 1993-cü ildə Nazirlər Kabinetində muzey işçilərinin respublika müşavirəsi keçirilib. 1994-cü ildə bu müşavirənin materialları əsasında "Respublikada muzey işinin vəziyyəti və onun yaxşılaşdırılması haqqında" qərar qəbul edilib. 2000-ci ildə "Muzeylər haqqında" qanunun qəbulu bu sahədə dövlət siyasətinin həyata keçirilməsinə, fəaliyyətinin hüquqi əsaslarının yaradılmasına geniş imkanlar açıb.

Ümummilli lider Heydər Əliyevin uğurlu davamçısı İlham Əliyev tərəfindən də bu sahədə uğurlu addımlar atılır, böyük layihələr həyata keçirilir. Cənab Prezidentin "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" 2007-ci il 6 mart tarixli Sərəncamı, 2009-cu il 22 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planı" və digər normativ aktlar bu sahədə hüquqi bazanın formalaşdırılmasının əyani ifadəsidir. Muzey şəbəkəsinin genişləndirilməsi işi son 10 ildə Prezident İlham Əliyevin yürütdüyü mədəniyyət siyasətinin mühüm prioritetlərindəndir. Ölkə başçısı bu sahəyə daim xüsusi diqqət və qayğı ilə yanaşaraq, eyni zamanda bir sıra yeni muzeylərin yaradılmasının bilavasitə təşəbbüskarı olub. Habelə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən "Muzey işinə dair məqsədli dövlət inkişaf Proqramı"nın (2008-2011-ci illər) hazırlanması muzey işi sahəsində genişmiqyaslı tədbirlərin həyata keçirilməsinə imkan yaradılmışdır. Ölkəmizdə mədəniyyətin bütün sahələrinə, o cümlədən muzey işinə qayğı həmişə olub və olacaqdır.

Yarandığı 53 il ərzində muzey, eksponatların sayının artması, gələn turistlərin ildən-ilə çoxalması və s. baxımdan işini uğurla davam etdirir. Mingəçevir şəhər Tarix Muzeyinin fəaliyyətinə xüsusi önəm vermək lazımdır. Bu muzeyə həm yerli, həm də xarici turistlərin marağı böyükdür. Hər il muzeyin yeni binasında və Heydər Əliyev Meydanında müxtəlif kütləvi tədbirlər, sərgilər təşkil olunur. Belə tədbirlərin keçirilməsində əsas məqsəd ölkəmizin tarixi ilə daha yaxından tanışlıq imkanı və muzeyə olan marağı daha da artırmaqdır. Son illər muzeyi ziyarət edənlərin sırasında Mingəçevir məktəbliləri, tələbələr, ətraf rayonların sakinləri ilə yanaşı, şəhərə gələn yerli və xarici turistlər də çoxluq təşkil edir.

Mingəçevir şəhər Tarix Muzeyi uşaq və gənclərin dünyagörüşünün formalaşmasında, yaşadıqları ölkənin dəyərlərini mənimsəməkdə və vətənpərvər kimi yetişməsində xüsusi rol oynayır. Muzey gələcəkdə regionun mədəni həyatına əhəmiyyətli töhfələr verməklə yanaşı, turizm potensialının genişləndirilməsinə də xidmət göstərəcəkdir. ❖

**Ədəbiyyat:**

1. Azərbaycan etnoqrafiyası, I cild, səh. 394
2. https://az.wikipedia.org/wiki/Mingəçevir
3. https://az.wikipedia.org/wiki/Mingəçevir_arxeoloji_kompleksi
4. http://mingechevir-ih.gov.az/page/
5. Nəcəf Museyibli. "Qədim tariximizin itirilən və yazılan səhifələri", "Xalq qəzeti", noyabr, 2016

**Резюме**

Гунай Рзаева

МИНГЯЧЕВИРСКИЙ ГОРОДСКОЙ ИСТОРИЧЕСКИЙ МУЗЕЙ
Музей Истории города Мингечевир, один из учреждений культуры, который воплощает наше материальное и культурное наследие, также является одним из музеев, который важен для наглядности и популяризации нашего исторического прошлого. Благодаря богатым экспонатам мы можем получить интересную информацию как о вчерашнем, так и сегодняшнем дне. В музее хранятся 16000 экспонатов, их основную часть составляют образцы, которые были получены в результате археологических раскопок в городе. Эти данные еще раз показывают, что история нашей страны идёт далеко в древность, и что территория города Мингячевир является одним из древнейших поселений в Азербайджане.

**Ключевые слова:** Мингечевир, музей, экспонат, история, культура

**Summary**

Gunay Rzayeva

MINGACHEVIR CITY HISTORY MUSEUM
Mingachevir City History Museum – one of our cultural institutions that preserves our material and cultural heritage, is one of the museums that is important in preserving and promoting our historical past. With its rich exhibitions, we can get interesting information about both our yesterday and today.
The museum has more than 16.000 exhibitions and the main part of them are the archeological samples, which were obtained as a result of archeological excavations in the city. The findings show once again that the history of our country is based on ancient times and the territory of Mingachevir city is one of the oldest settlements in Azerbaijan.

**Keywords:** Mingachevir, Museum, Exhibition, Archeological, Culture